UOT 327
https://doi.org/10.30546/25194011.2026.15.03.4097

ZƏNGƏZUR LAYİHƏSİNİN DAXİLİ İMKANLARI VƏ REGİONAL AKTORLAR ÜÇÜN PERSPEKTİVLƏR: GÜCLÜ TƏRƏFLƏR VƏ İMKANLAR

Elvin ŞİRİNOV*

Daxil olub: 29 Yanvar 2026 | Qəbul edilib: 7 İyun 2026 | Onlayn nəşr edilib: 18 İyun 2026
Received: 29 January 2026 | Accepted: 7 June 2026 | Published online: 18 June 2026

Açar sözlər: *Zəngəzur dəhlizi, TRIPP doktrinası, Cənubi Qafqaz, makroiqtisadi analiz, birgə qazanclar, geosiyasət*

Giriş

Zəngəzur dəhlizi layihəsi müasir geoiqtisadi şəraitdə Cənubi Qafqazın nəqliyyat-loqistika arxitekturasını köklü şəkildə dəyişməklə yanaşı, həm də regionun təhlükəsizlik paradiqmasını yenidən müəyyən edən strateji subyekt qismində çıxış edir. Layihənin reallaşma perspektivləri strateji planlaşdırma aləti olan SWOT analizi vasitəsilə tədqiq edildikdə, əsas məqsəd dəhlizin daxili potensialını və struktur çatışmazlıqlarını aşkar etmək, həmçinin xarici mühitin təqdim etdiyi fürsətləri və regional-qlobal geosiyasi təhdidləri sistemləşdirməkdir. Zəngəzur marşrutu bəşəriyyət tarixi boyu regionda mövcud olmuş təbii ticarət yollarının bərpası və "Tarixi İpək Yolu"nun müasir konseptdə canlandırılması baxımından geostrateji əhəmiyyət kəsb edən bir keçiddir. Bu keçidin yenidən aktivləşməsi Cənubi Qafqazın tarixi ticarət mərkəzi statusunu qaytarmaqla yanaşı, Şərq ilə Qərb arasında iqtisadi və mədəni əlaqələri daha effektiv platformada birləşdirir. Enerji kəmərlərinin diversifikasiyası və Avrasiya nəqliyyat infrastrukturunun genişləndirilməsi regionda davamlı sabitliyin qorunması üçün qonşu dövlətlərdən destruktiv iddialardan kənar durmağı və aktiv geoiqtisadi əməkdaşlığa qoşulmağı tələb edir. Bu strateji proseslərdə hər zaman aparıcı rol oynayan Azərbaycan, İkinci Qarabağ müharibəsində qazanılan tarixi zəfərdən sonra öz xarici siyasət prioritetlərini regionun yeni geosiyasi reallıqlarına uyğun olaraq daha qətiyyətlə formalaşdırmağa başlamışdır (19, s. 117). Məhz bu yeni regional iradənin nəticəsi olaraq gündəmə gələn Zəngəzur dəhlizi, həm də qlobal logistik zəncirdəki yüksək rəqabətədavamlılığı ilə diqqət çəkir.

1. Metodoloji çərçivə

Bu tədqiqatda Cənubi Qafqazın geosiyasi təhlükəsizlik arxitekturası və Zəngəzur dəhlizinin transkontinental loqistik potensialı SWOT analizi (güclü və zəif tərəflər, imkanlar və təhdidlər) və müqayisəli makroiqtisadi analiz metodları vasitəsilə tədqiq edilmişdir. Tədqiqatın empirik bazasını Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin, Ermənistan Statistika Komitəsinin (Armstat) və Gürcüstan Milli Statistika İdarəsinin (Geostat) 2025-ci il üzrə rəsmi xarici ticarət hesabatları, həmçinin ABŞ-ın 2025-2026-cı illərə aid "Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu" (TRIPP) geosiyasi doktrinasının rəsmi sənədləri və 7 avqust 2025-ci il tarixli Ermənistan-Azərbaycan sülh müqaviləsinin (maddə 14) mətnləri təşkil edir. Sənədlərin elmi-nəzəri interpretasiyasında Devid Russonun neorealist "mütləq qazanclar" və "birgə qazanclar" konseptual modellərindən istifadə olunmuşdur. Regional aktorların xarici ticarət dövriyyəsi, ixrac-idxal balansları və illik dinamikası üzrə statistik məlumatlar sistemləşdirilərək müqayisəli cədvəllər vasitəsilə vizuallaşdırılmış və kəmiyyət analizinə məruz qoyulmuşdur. Keyfiyyət analizi metodologiyası çərçivəsində isə sənədlərin məzmun

* *doktorant, Azərbaycan Turizm və Menecment Universiteti*
e-mail: elvin.shirinov008@gmail.com
ORCID: https://doi.org/10.30546/25194011.2025.14.5.3046

təhlili aparılaraq, regional sülh sazişinin qlobal geosiyasi doktrinalarla inteqrasiya səviyyəsi və asimmetrik risklərin minimallaşdırılması strategiyaları elmi cəhətdən əsaslandırılmışdır.

2. Dəhlizin coğrafi-logistik üstünlükləri və zaman-məsafə səmərəliliyi

Regional daşımaların əsas sütunu hesab olunan Bakı-Tbilisi-Qars dəmir yolu xətti strateji əhəmiyyət kəsb etsə də, coğrafi konfiqurasiya baxımından dolanbac marşrut təşkil edir. Zəngəzur dəhlizi isə Azərbaycanın əsas hissəsi ilə onun eksklavı olan Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında daha qısa və birbaşa quru yolu təklif edir. Digər kanallarda birdən çox ölkənin gömrük və sərhəd-keçid prosedurlarından keçmək lazım olduğu halda, Zəngəzur dəhlizi daha az tranzit nöqtəsi ilə institusional "tək pəncərə" sisteminin tətbiqinə və sürətli keçidə şərait yaradır. Üstəlik, cari alternativ yolların bəziləri yüksək dağlıq və çətin iqlim şəraitindən keçdiyi halda, Zəngəzurun təbii coğrafi relyefində maneələrin azlığı logistik infrastrukturun qurulması və fasiləsiz istismarı üçün daha əlverişli imkanlar vəd edir. Məsafənin təbii şəkildə qısalması yalnız tranzit ölkələr üçün deyil, həm də ixracatçı şirkətlər üçün böyük stimuldur, çünki navlun müddətinin azalması dövriyyə kapitalının daha sürətli hərəkətinə imkan yaradır. İstehsalçıların öz məhsullarını hədəf bazarlara 30 gün ərzində deyil, 15 gün ərzində çatdıra bilməsi, yəni vaxta 33%-ə qədər qənaət edilməsi bu marşrutu sadəcə iki ölkə arasında bir yol deyil, qlobal ticarətin sürətini artıran strateji bir "iqtisadi arteriya"ya çevirir. Bu cəlbedicilik Türkiyənin Qars və İğdır bölgələrini, həmçinin Azərbaycanın Naxçıvan və Qarabağ bölgələrini nəhəng logistik mərkəzlərə transformasiya etmək iqtidarındadır.

3. Layihənin beynəlxalq hüquqi bazası və ikitərəfli ticarət sazişləri

Bu kontekstdə vurğulanmalıdır ki, Zəngəzur dəhlizi sadəcə fiziki nəqliyyat infrastrukturu deyil, həm də layihənin geosiyasi hüquqi sütunlarını formalaşdıran beynəlxalq hüquq və ikitərəfli sazişlərlə möhkəmləndirilmiş strateji bir təşəbbüsdür. Layihənin hüquqi əsaslarından birini təşkil edən və 1 mart 2021-ci ildən qüvvəyə minən Ticarət Sazişi Azərbaycan və Türkiyə arasındakı ticarət dövriyyəsini artırmaq üçün xüsusi güzəştlər və tarif azadlıqları nəzərdə tutur. Eyni zamanda, vizasız gediş-gəliş haqqında saziş vətəndaşların və sahibkarların yerdəyişməsini asanlaşdıraraq, dəhlizin logistik effektivliyini tamamlayır və malların Avropa bazarlarına çıxışı üçün bir növ "yaşıl dəhliz" rolunu oynayır. Regional miqyasda 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın 9-cu maddəsi və ardınca ABŞ-ın vasitəçiliyi ilə inkişaf etdirilən 7 avqust 2025-ci il tarixli Ermənistan-Azərbaycan sülh müqaviləsi dəhlizin hüquqi statusunu yeni mərhələyə daşımışdır (18, s.14). Beynəlxalq arenada "Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu" (TRIPP) geosiyasi doktrinası çərçivəsində tanınan bu layihə təhlükəsiz tranzit keçidləri beynəlxalq təminat altına almaqla Ermənistanın blokadadan çıxaraq regional ticarətə inteqrasiyasını, Azərbaycanın Naxçıvanla kəsilməz quru əlaqəsini və Gürcüstanın regional logistik statusunun qorunmasını eyni vaxtda təmin edir. Şuşa Bəyannaməsi ilə də dəstəklənən bu möhkəm hüquqi baza investorlar üçün layihənin risklərini azaldaraq onu Orta Dəhliz çərçivəsində rəqabətsiz edir və əsas regional aktorların maraqlar balansını tam tənzimləyir.

4. Regional və transkontinental aktorların strateji maraqlar balansı

Təhlillər göstərir ki, dəhlizin açılması ilk növbədə Azərbaycanın geostrateji qovşaq statusunu möhkəmləndirəcək və ölkənin ÜDM-ni uzunmüddətli dövrdə təxminən 2.5%-4.5% civarında artıracaqdır (1). Milli inteqrasiya baxımından Naxçıvanla birbaşa quru əlaqəsinin qurulması 30 illik blokadaya son qoyacaq, hazırda blokada və yüksək daşıma xərcləri səbəbindən cəmi 30-40% tutumla işləyən Naxçıvan müəssisələrinin tam gücü ilə fəaliyyət göstərməsinə və yeni bazarlara çıxmasına şərait yaradacaqdır. İqtisadi səmərəlilik baxımından isə Azərbaycan Naxçıvanın qaz təchizatında İran üzərindən ödənilən 15%-lik komissiya xərcindən azad olacaq və Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun mərkəzinə çevrilərək tranzit gəlirlərini kəskin artıracaqdır (14). Eyni zamanda, Türkiyənin logistik sahədəki çoxillik təcrübəsi və strateji infrastruktur investisiyaları dəhliz vasitəsilə türk dünyasına çıxış və logistik liderlik vizyonunu şərtləndirən ən mühüm amillərdən biridir. Türkiyə müasir tarixində ilk dəfə olaraq Orta Asiya türk dövlətləri ilə üçüncü tərəflərin ərazisindən keçmədən

birbaşa quru əlaqəsi qurmaq şansı əldə edir ki, bu da regional inteqrasiyanı sürətləndirir. Bu proses Türkiyənin sənaye profilini tənzimləyən və TRA2 bölgəsi adlanan Şərqi Anadolunun (Qars, İğdır, Ərdəhan və Ağrı) iqtisadi geriliyini aradan qaldıracaq, vilayətlərin ixrac potensialını 3.1 dəfə artıraraq 500 milyon dollara çatdıracaqdır (10). Xüsusilə Bakı-Tbilisi-Qars dəmir yolundan sonra dəhlizin əməliyyat gücünü artırmaq üçün nəzərdə tutulan 412 min ton yükdaşıma tutumlu Qars Logistik Mərkəzi Orta Dəhlizin şərq qapısına və Çindən gələn yüklərin Avropaya ötürülməsində "paylayıcı mərkəzə" çevriləcək, logistik xərclərin azalması isə İğdırda yaradılması planlaşdırılan səhiyyə sərbəst bölgəsi və sənaye parkları ilə birlikdə Türkiyə istehsalçılarının Orta Asiya bazarlarında payını yüksəldəcəkdir.

Digər tərəfdən, Rusiya üçün bu layihə kommunikasiya nəzarəti və sanksiyalardan çıxış imkanı baxımından əhəmiyyətlidir. Beynəlxalq sanksiyalar səbəbindən sıxılmış Rusiya iqtisadiyyatı müasir tarixdə ilk dəfə olaraq Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsi əldə edir və bu xətt Rusiyanın Hind okeanına çıxışını asanlaşdıran Şimal-Cənub nəqliyyat dəhlizi (INSTC) ilə inteqrasiya olunur. Üçtərəfli bəyanata əsasən dəhliz boyu nəqliyyat əlaqəsinə nəzarətin Rusiya FTX-nin Sərhəd Xidməti tərəfindən həyata keçirilməsi nəzərdə tutulduğu üçün Moskva həm regionun ən mühüm arteriyası üzərində nəzarəti qoruyur, həm də Ermənistanın iqtisadi asılılığını öz maraqları çərçivəsində balanslaşdıra bilir (5). Bölgə dövlətlərinin hüdudlarını aşan bu layihə, transkontinental təsir dairələri formalaşdıraraq, Orta Asiya, Yaxın Şərq və Qərb blokunun geostrateji rəqabət meydanına çevrilir və Sakit okean hövzəsini Atlantik okean ilə birləşdirən ən qısa quru arteriyası funksiyasını yerinə yetirir. Orta Asiya ölkələri üçün Zəngəzur dəhlizi Rusiyadan asılı olmayan bir "geoiqtisadi nəfəslik" rolunu oynayır; Qazaxıstanın nəqliyyat sisteminə yatırdığı 35 milyard dollarlıq vəsait bu dəhlizlə tamamlanır və regionun "quru limanı" statusunu möhkəmləndirir. Türkmənistanla imzalanmış "Dostluq" yatağı memorandumu da göstərir ki, Orta Asiya enerji resursları Rusiya və İrandan yan keçərək, birbaşa Zəngəzur və Türkiyə vasitəsilə Qərbə axacaq və Türk Dövlətləri Təşkilatı çərçivəsində inteqrasiyanı yeni mərhələyə daşıyacaqdır.

Yaxın Şərq regionunda isə bu dəhliz İran və İsrail arasında geostrateji rəqabəti kəskinləşdirir. Tehran üçün Zəngəzur dəhlizi onun regional tranzit inhisarının sona çatması, Azərbaycanın Naxçıvana göndərdiyi qaz üçün ödənilən 15%-lik rüsumun ləğvi və Türkiyə bazarında İranın rolunun zəifləməsi demək olduğu üçün ciddi qayğı doğurur; buna cavab olaraq İran alternativ yolları təşviq etməyə çalışır. Əksinə, İsrail üçün Azərbaycan mühüm enerji təchizatçısı və strateji tərəfdaş olduğundan, Zəngəzur dəhlizi onun ən yaxın müttəfiqinin güclənməsi və İranın "tranzit təzyiqi" rıçaqlarının zəifləməsi baxımından böyük əhəmiyyət kəsb edir. Nəhayət, ABŞ və Avropa başda olmaqla Qərb bloku üçün Zəngəzur dəhlizi həm enerji təhlükəsizliyi, həm də Rusiya və Çini tarazlaşdıran strateji bir vasitə olan ABŞ-ın Zəngəzur Dəhlizi Strategiyası çərçivəsində geosiyasi və geoiqtisadi maraqlara xidmət edir. 2025-ci il Vaşinqton bəyannaməsi ilə gündəmə gələn TRIPP konsepsiyasının ən əsas məqsədlərindən biri Rusiyanın regional təsirini azaltmaq, Ermənistan üçün "Rusiya dövrünü bitirmək" və onun iqtisadi asılılığını Qərbə doğru yönəltməkdir (18, maddə 14). Bu layihə Rusiyadan və sanksiyalar altında olan İrandan yan keçən təhlükəsiz bir marşrut təqdim etməklə Vaşinqtonun Çinin "Bir Kəmər, Bir Yol" layihəsini Qərbin maraqları çərçivəsində balanslaşdırmasına və Asiyadan Avropaya gedən yüklərin kritik qovşağında söz sahibi olmasına xidmət edir. Eyni zamanda, Ukrayna müharibəsi fonunda Avropanın enerji diversifikasiyası baxımından bu dəhliz Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) kəmərlərinin ötürücülük qabiliyyətini artıracaq yeganə etibarlı xətt kimi çıxış edir. ABŞ-ın maraq göstərdiyi digər strateji məqam isə regional "yumşaq güc" siyasəti çərçivəsində Ermənistanın zəngin yeraltı mineral və metal ehtiyatlarına çıxış əldə etmək və bu resursların dünya bazarına çıxarılmasını asanlaşdırmaqdır.

Regionun makroiqtisadi reallıqlarını və Zəngəzur dəhlizinin yaradacağı bu transkontinental imkanları daha dərindən qiymətləndirmək üçün Cənubi Qafqaz ölkələrinin 2025-ci il üzrə xarici ticarət göstəricilərinin müqayisəli analizinə nəzər salmaq zəruridir.

Cədvəl: *Cənubi Qafqaz ölkələrinin xarici ticarət göstəriciləri (2025-ci ilin yekunları)*

Göstəricilər	Azərbaycan	Ermənistan	Gürcüstan
Ümumi ticarət dövriyyəsi *(milyard $)*	49.40	21.43	25.82
İxrac həcmi *(milyard $)*	25.00	8.40	7.29
İdxal həcmi *(milyard $)*	24.38	13.03	18.53
Ticarət balansı (saldo) *(milyard $)*	+0.662	-4.63	-11.24
Dövriyyədə illik dinamika (%)	+3.8%	-29.0%	+10.1%

Mənbə: Dövlət Gömrük Komitəsi (2026), Armstat (2026) və Geostat (2026) rəsmi hesabatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Bu geoiqtisadi dinamika Devid Russonun dövlətlərin strateji qərarvermə mexanizmində təsvir etdiyi "mütləq qazanclar" və "birgə qazanclar" strategiyalarının regional sub-sistemdəki real tətbiqini nümayiş etdirir (15, s. 412-414). Neorealist yanaşmanın "dövlətlər əməkdaşlıq zamanı hər zaman bir-birinə təhdid kimi baxır" stereotipini qıran bu model sübut edir ki, qarşılıqlı inam və strateji müttəfiqlik mühitində aktorlar sıfır cəmli oyun rejimindən çıxaraq kollektiv rifahı stimullaşdıran "birgə qazanclar" motivasiyası ilə hərəkət edirlər. Azərbaycan və Türkiyənin Zəngəzur dəhlizi vasitəsilə formalaşdırdığı geoiqtisadi arxitektura, sub-regional miqyasda mütləq mənfəətlərin maksimallaşdırılmasına və Türk Dövlətləri Təşkilatı (TDT) coğrafiyasında asimmetrik asılılıqları minimallaşdıran müştərək bir iqtisadi ekosistemin qurulmasına xidmət edir. Başqa sözlə, Ankara və Bakı üçün bu marşrut sadəcə fərdi tranzit gəliri mənbəyi deyil, regional inteqrasiyanın institusional əsaslarını bərkidən və qlobal bazarlara çıxışda türk dünyasının kollektiv rəqabət qabiliyyətini artıran birgə geostrateji qazanc platformasıdır.

Müqayisəli iqtisadi modellərin analizi Cənubi Qafqaz regionunda fərqli makroiqtisadi trendlərin mövcudluğunu aşkar etməklə yanaşı, Zəngəzur dəhlizinin regional aktorlar üçün açdığı strateji imkanları və yeni inkişaf perspektivlərini ortaya qoyur. Cədvəldə əks olunan makroiqtisadi rəqəmlərin elmi-iqtisadi təhlili sub-regional səviyyədə fərqli iqtisadi trendlərin mövcudluğunu və Zəngəzur dəhlizinin bu modellər üçün açdığı perspektivləri sübut edir. Bu kontekstdə ilk növbədə Azərbaycanın balanslı keçid və xidmət ixracının stimullaşdırılmasına əsaslanan iqtisadi modeli diqqəti cəlb edir. Azərbaycan regionda müsbət ticarət balansını qoruyub saxlayan yeganə ölkədir; lakin 2024-cü ildəki 5.3 milyard dollarlıq profisitin 2025-ci ildə 662.6 milyon dollara qədər daralması iqtisadiyyatın struktur transformasiyası mərhələsinə qədəm qoyduğunu göstərir. Dövlət Gömrük Komitəsinin (2026) hesabatlarına əsasən, xarici ticarət dövriyyəsinin 3.8% artaraq 49.4 milyard dollara çatması fonunda, ixracın 5.7% azalaraq 25 milyard dollara düşməsi qlobal enerji bazarlarındakı konyunktura, idxalın 15.8% artaraq 24.38 milyard dollara yüksəlməsi isə azad edilmiş ərazilərdə icra olunan irihəcmli infrastruktur layihələri ilə şərtlənir. Bu vəziyyətdə Zəngəzur dəhlizi Azərbaycan üçün "investisiya və istehlak yönümlü idxal" fazasından doğan boşluğu dayanıqlı "logistik xidmət ixracı" rüsumları ilə doldurmaq və qeyri-neft gəlirlərində keyfiyyət sıçrayışı etmək üçün həyati strateji alətə çevrilir.

Digər tərəfdən, Ermənistan iqtisadiyyatında müşahidə olunan korreksiya fəsadları və regional kommunikasiyalara real inteqrasiya zərurəti dəhlizin aktuallığını daha da artırır. 2025-ci ilinin yekunlarına əsasən Ermənistanın xarici ticarət dövriyyəsində qeydə alınan 29%-lik, ixracda isə 36.1%-lik kəskin azalma ölkə iqtisadiyyatının institusional böhranından deyil, əvvəlki illərdə müşahidə olunan qeyri-təbii təkrar ixrac köpüyünün partlamasından xəbər verir (5). Ermənistan Statistika Komitəsinin (7) rəqəmlərinə görə, idxalın da 23.6% azalması daxili istehlakın daralmasından çox, təkrar ixrac üçün ölkəyə gətirilən xammal axınının dayanması ilə bağlıdır. Siyahıdakı mənfi 4.63 milyard dollarlıq saldo Ermənistanın enerji və maşınqayırma sahəsində xarici asılılığının yüksək olduğunu təsdiqləyir. İrəvanın 2025-ci ilin iyulunda qəbul etdiyi "2025-2030 İxrac Strategiyası" vasitəsilə Rusiya bazarından birtərəfli asılılığı azaltmaq və geoiqtisadi diversifikasiyaya nail olmaq cəhdləri regional kommunikasiyaların, xüsusilə də Zəngəzur dəhlizinin açılmasını obyektiv zərurətə çevirir. 2025-ci ilin son rübündəki qismən bərpa və 2026-cı ilin birinci rübündə qeydə alınan 4.6%-lik artım iqtisa-

diyyatın şok korreksiyadan çıxaraq real bazisə qayıtdığını göstərir ki, bu da rəsmi İrəvanı regional layihələrə daha konstruktiv yanaşmağa sövq edən iqtisadi drayver rolunu oynaya bilər (6).

Nəhayət, regionun digər mühüm aktoru olan Gürcüstanın mövcud vasitəçi ticarət modelinin yaratdığı rəqabət mühiti də dəhliz kontekstində yenidən qruplaşdırılmalıdır. Gürcüstan iqtisadiyyatı 2025-ci ildə xarici ticarət dövriyyəsini 10.1% artıraraq 25.82 milyard dollara çatdırmaqla tarixi rekord müəyyən etsə də, 11.2 milyard dollarlıq nəhəng ticarət kəsiri ilə üz-üzədir (8). Gürcüstan Milli Statistika İdarəsinin (12;13) ilkin məlumatlarına əsasən, ixracın 11.2% artaraq 7.29 milyard dollara çatmasının əsas hərəkətverici qüvvəsi yerli istehsal deyil, ümumi ixrac gəlirlərinin 38.6%-ni təşkil edən avtomobillərin Mərkəzi Asiyaya təkrar ixracı olmuşdur. Gürcüstan hazırda ABŞ, Türkiyə və Çindən gələn malların regiona ötürülməsində birtərəfli regional loqistik qovşaq rolu oynayır. Zəngəzur dəhlizinin fəaliyyətə başlaması regionda mövcud olan bu birtərəfli coğrafi inhisarı balanslaşdıracaq, regional tarif rəqabətini artıracaq və bütövlükdə Cənubi Qafqazın multimodal daşımalarda cəlbediciliyini gücləndirəcəkdir. Qeyd edək ki, qlobal miqyasda, ATLANTA – Qlobal Ticarət Brifinqində Gürcüstan ticarət palatasının 2025-ci il hesabatlarında qeyd olunan beynəlxalq ticarət həcmi və ixrac artımı tendensiyası da qlobal loqistik zəncirlərin sub-regional mərkəzlərlə inteqrasiyasının miqyasını əyani nümayiş etdirir (10;11).

Qlobal miqyaslı bu makroiqtisadi trendlər və bütövlükdə Cənubi Qafqaz regionu üzrə analiz edilən statistik mənzərə sub-regional strukturun keyfiyyətcə yeni bir iqtisadi stimul mənbəyinə ehtiyacı olduğunu sübut edir. Bu zərurətdən çıxış edərək, layihənin gələcək multiplikativ effektlərini elmi cəhətdən əsaslandırmaq məqsədilə irəli sürülən "İqtisadi inteqrasiya və ticarət artımının sinerjisi" adlı elmi-nəzəri fərziyyənin əsas empirik tezisləri bir neçə sütuna əsaslanır. Birincisi, investisiya və siyasət sinerjisi çərçivəsində irimiqyaslı dəmir və avtomobil yollarının inşası ilə trans-sərhəd keçid proseduralarının sadələşdirilməsi regional logistikanın sürətlənməsinə fundamental institusional zəmin yaradır. İkincisi, kommunikasiya asimmetriyasının aradan qaldırılması prosesi Ermənistanın onilliklərdir davam edən regional izolyasiyadan çıxmasına, Azərbaycanın isə Naxçıvanla birbaşa və kəsintisiz quru əlaqəsinin bərpasına xidmət edərək suveren iqtisadi məkanın bütövlüyünü təmin edir. Üçüncüsü, regional sabitliyin iqtisadi təminatı nəticəsində tranzit gəlirlərinin artması və region ölkələri arasında yaranacaq struktur asılılıq, potensial münaqişə risklərini azaldan hərbi-siyasi sığorta rolu oynayır.

Dördüncüsü isə, inteqrasiyalı iqtisadi zonaların yaradılması hədəfidir ki, bu müstəvidə dəhliz sadəcə xətti nəqliyyat infrastrukturu deyil. Onun marşrutu boyunca yaradılacaq azad iqtisadi zonalar, sənaye parkları və gömrük-logistik terminalları Cənubi Qafqaz ölkələri arasında birbaşa kooperasiyanı stimullaşdıraraq, ümumi ticarət dövriyyəsini qlobal hədəflərə yaxınlaşdıracaqdır.

İrəli sürülən bu fərziyyənin elmi-nəzəri əsası Russonun strateji matrisində yer alan "bərabərlik" və kollektiv regional dayanıqlıq prinsipləri ilə tamamilə uzlaşır (15, s. 414). Zəngəzur koridoru ətrafında qurulan "Azərbaycan-Türkiyə-Türk dünyası" geoiqtisadi oxu, sub-regional aktorlara qarşı iqtisadi hegemonluq qurmaq məqsədi daşımır; əksinə, Russonun qeyd etdiyi kimi, regional tərəfdaşlar arasında subyektiv təhdid qavrayışını aşağı salmaq üçün "bərabərhüquqlu və birgə mənfəət" modelini təşviq edir. Bu yanaşma, Orta Asiyanın "quru limanı" funksiyasını yerinə yetirən Qazaxıstanın və trans-milli enerji kəmərlərinin diversifikasiyasını hədəfləyən Türkmənistanın geoiqtisadi maraqlarını eyni strateji xətt üzərində birləşdirir. Beləliklə, layihənin daxili imkanları çərçivəsində formalaşan bu sinerji, Rusiyadan və İrandan yan keçən alternativ bir "coğrafi nəfəslik" yaratmaqla, beynəlxalq anarxiyanın doğurduğu təhlükəsizlik dilemmasını iqtisadi qarşılıqlı asılılıq və ortaq bazar strategiyası vasitəsilə neytrallaşdırmağa nail olur.

Bütün bu amillərin sinerjisi sübut edir ki, Zəngəzur dəhlizinin reallaşması Şərq-Qərb ticarətində Rusiyadan yan keçən "çatışmayan halqa"nın birləşdirilməsi deməkdir və bu marşrut regional aktorlar üçün "qazan-qazan" modelinə əsaslanan transkontinental inteqrasiya platforması kimi Avrasiyanın iqtisadi arxitekturasında yeni bir eranın başlanğıcıdır. O, Orta Asiyanı qlobal bazarlara çıxarır; Yaxın Şərqdə tranzit balanslarını dəyişir; Qərb üçün strateji enerji və təhlükəsizlik dəhlizi funksiyasını yerinə yetirir.

ABŞ üçün bu dəhliz sadəcə bir nəqliyyat marşrutu deyil, Avrasiyanın mərkəzində güc balansını dəyişdirəcək çoxşaxəli bir layihədir. Vaşinqtonun bu layihəyə verdiyi strateji dəstək Rusiya, Çin və İranın təsir rıçaqlarını zəiflətmək və eyni zamanda Qərbin Cənubi Qafqaz və Mərkəzi Asiyadakı mövqelərini möhkəmləndirmək məqsədi güdür.

Layihənin geosiyasi arxitekturasında Ermənistanın xarici siyasət və təhlükəsizlik vektorunun dəyişdirilməsi mühüm yer tutur. "Tramp Marşrutu" vasitəsilə İrəvanın Moskvadan olan çoxşaxəli asılılığının minimuma endirilməsi və regionda Rusiya orbitindən kənar yeni bir logistik reallığın yaradılması hədəflənir. Rusiyadan yan keçən bu təhlükəsiz keçid, həm də Kremlin regional tranzit inhisarını sarsıdır. Paralel olaraq, dəhliz rəsmi Vaşinqtonun Çinin iqtisadi ekspansiyasına qarşı yönəlmiş qlobal doktrinasının tərkib hissəsi kimi çıxış edir. Orta Dəhlizin (TITR) aktivləşdirilməsi və bu qovşağın beynəlxalq nəzarət mexanizmləri altında idarə olunması təklifi, Pekinin ticarət yollarına qarşı Qərb mərkəzli və etibarlı bir alternativ tədarük zənciri formalaşdırmaq niyyətindən xəbər verir.

Digər tərəfdən, dəhliz İranın regional təcridini dərinləşdirmək üçün effektiv mexanizm rolunu oynayır. Yeni marşrutun işə düşməsi ilə Azərbaycan və Türkiyənin İran ərazisindən keçən tranzit xətlərinə ehtiyacı kəskin azalır, bu isə Tehranın regiondakı geoiqtisadi rıçaqlarını zəiflədir. Bununla yanaşı, Mərkəzi Asiyanın karbohidrogen ehtiyatlarının Rusiya və İrandan yan keçərək birbaşa Avropa bazarlarına çıxarılması layihəsi ABŞ-ın qlobal enerji təhlükəsizliyi strategiyası ilə tam üst-üstə düşür.

Geoiqtisadi səmərəlilik baxımından layihə təkcə tranzit imkanları ilə məhdudlaşmır, həm də Ermənistanın zəngin mineral ehtiyatlarının Qərb sənayesi üçün əlçatan olmasını təmin edən texniki infrastruktur bazası yaradır. Vaşinqton 2025-ci ilin avqust bəyannaməsində əks olunduğu kimi, regionda hərbi mövcudluq (sərt güc) yerinə, iqtisadi rifah və inteqrasiya vəd edən "yumşaq güc" modelinə üstünlük verir. TRIPP çərçivəsində dəhlizin idarəçiliyində və ya dəstəklənməsində ABŞ-ın rolunun nəzərdə tutulması regional təhlükəsizlik arxitekturasında Vaşinqtonun davamlı iştirakını qanuniləşdirir. Nəticə etibarilə, Zəngəzur dəhlizi ABŞ-a Rusiyanı regiondan sıxışdırıb çıxarmaq, İranın tranzit əhəmiyyətini azaltmaq, Çinin ticarət yollarını balanslaşdırmaq və Avropanın enerji şaxələndirilməsini təmin etməklə Cənubi Qafqaz üzərindən Mərkəzi Asiyaya birbaşa nüfuz qapısı açmaq imkanı verir.

Yekun olaraq, Zəngəzur dəhlizi layihəsi Azərbaycan Respublikasının strateji milli hədəfi olan "2030-cu ilə qədər dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat" modelinin mərkəzində duran ən mühüm geoiqtisadi komponentlərdən biri kimi çıxış edir və regionun daxili imkanlarının maksimallaşdırılması üçün həlledici perspektivlər vəd edir.

Tədqiqatdan əldə edilən konseptual tapıntılar göstərir ki, Zəngəzur dəhlizi ətrafında formalaşan yeni geoiqtisadi konyuktura regional aktorların strateji xarici siyasət prioritetlərini fundamental şəkildə transformasiyaya uğratmışdır. Ermənistan iqtisadiyyatının blokada şəraitindəki daxili kövrəkliyi, xüsusilə regional təcrid fonunda qeydə alınan struktur daralması İrəvanın yaxın gələcəyə hesablanmış ixrac strategiyalarının uğurunu birbaşa bu regional arteriyanın işləkliyindən asılı vəziyyətə gətirir. İşin konseptual sütununu təşkil edən əsas məqam odur ki, 7 avqust sülh müqaviləsi ilə bərqərar olan yeni hüquqi status-kvo, regional konteksti aşaraq Ağ Evin qlobal makro-strateji təşəbbüsləri ilə birbaşa uzlaşmışdır. Bu vəziyyət Devid Russonun neorealist yanaşmasında vurğulanan "mütləq rifah" imperativinin Cənubi Qafqazda praktiki olaraq tətbiqinə imkan verir; tərəflər təhlükəsizlik tərəddüdünü minimallaşdıraraq sıfır cəmli rəqabətdən imtina edirlər. Eyni zamanda, layihənin təklif etdiyi strateji zaman səmərəliliyi, regionun mövcud inhisarçı loqistik marşrutlarını tamamlayaraq Avrasiya miqyasında daha rəqabətli və diversifikasiya olunmuş bir tarif tənzimlənməsi formalaşdırır.

Nəticə:

Cənubi Qafqazın makroiqtisadi göstəricilərinin, logistik asılılıqlarının və xarici ticarət dinamikasının müqayisəli təhlili göstərir ki, regionda mövcud olan birtərəfli inhisarçı nəqliyyat strukturları artıq öz iqtisadi limitlərinə çatmışdır. Zəngəzur dəhlizi layihəsinin struktur analizi və regional aktorların iqtisadi parametrlərinin retrospektiv qiymətləndirilməsi təsdiq edir ki, bu layihə artıq nəzəri bir təşəbbüs mərhələsini geridə qoyaraq, transkontinental miqyasda institusional və beynəlxalq hüquqi təminat qazanmış geoiqtisadi reallığa çevrilmişdir. Dəhlizin SWOT təhlili müstəvisində aparılan el-

mi-praktiki qiymətləndirmə sübut edir ki, layihənin daxili güclü tərəfləri (zaman və məsafə səmərəliliyi, illik minimum 15 milyon tonluq ötürmə potensialı) xarici mühitin təqdim etdiyi qlobal meyllərlə tam uzlaşır.

2025-ci ilin yekun makroiqtisadi göstəriciləri Zəngəzur dəhlizinin açılmasını sub-regional aktorlar üçün alternativsiz bir makrostruktur zərurət kimi formalaşdırır:

- Ermənistan Respublikası üçün struktur transformasiya zərurəti: Son illərdə Ermənistan iqtisadiyyatında müşahidə olunan süni təkrar ixrac (*re-export*) köpüyünün 2025-ci ilin yekunlarına əsasən partlaması və ölkənin xarici ticarət dövriyyəsində qeydə alınan kəskin 29%-lik azalma regional izolyasiyanın Ermənistan üçün fəlakətli nəticələrini bir daha sübut etmişdir. Bu kontekstdə daxili iqtisadiyyatın institusional korreksiyası və regional blokadadan çıxış, yalnız Zəngəzur dəhlizinin təqdim etdiyi regional kommunikasiya sisteminə inteqrasiya vasitəsilə mümkündür;
- Azərbaycan Respublikası üçün strateji kompensasiya və diversifikasiya: Azad edilmiş ərazilərin genişmiqyaslı bərpası və daxili investisiya fazasından xidmət ixracı fazasına keçid zərurəti fonunda, Azərbaycanın cari əməliyyatlar balansındakı profil dəyişiklikləri gələcəkdə Zəngəzur dəhlizinin gətirəcəyi yüksək rentabilitətli "logistik xidmət ixracı" rüsumları ilə tam kompensasiya olunacaqdır. Dəhliz ölkənin ÜDMsini uzunmüddətli dövrdə 2.5% - 4.5% civarında artırmaq potensialına malikdir (1);
- Regional rəqabət konyukturası və Gürcüstan faktoru: Gürcüstanın xarici ticarət dövriyyəsinin son rekordlara (25.8 milyard dollar) çatmasına baxmayaraq, xarici ticarət balansındakı kəskin kəsir və iqtisadiyyatın böyük ölçüdə avtomobil re-ixracından asılı olması regionda yeni tarif rəqabətini qaçılmaz edir. Zəngəzur dəhlizi Orta Dəhliz daxilində vaxta 33%-ə qədər qənaət (daşınma müddətinin 30 gündən 15 günə düşməsi) təklif etməklə regionun loqistik xəritəsini yenidən formalaşdırır.

Geosiyasi müstəvidə, ABŞ-ın vasitəçiliyi ilə inkişaf etdirilən və 7 avqust 2025-ci il tarixində imzalanan Ermənistan-Azərbaycan sülh müqaviləsi dəhlizin açılması prosesində həlledici dönüş nöqtəsi olmuşdur (18, m.14). Bu kontekstdə layihənin Vaşinqtonun "Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu" geosiyasi doktrinasının tərkib hissəsinə çevrilməsi, tədqiqatın elmi yeniliyini sub-regional kontekstdən çıxararaq qlobal geosiyasi inteqrasiya səviyyəsinə qaldırır. Belə bir qlobal doktrinal inteqrasiya Zəngəzur dəhlizinə sadəcə lokal bir keçid statusu deyil, transkontinental ticarət təhlükəsizliyi arxitekturasında güclü beynəlxalq təminat mexanizmi qazandırır və onu Orta Dəhliz daxilində strateji cəhətdən alternativsiz edir.

Nəzəri müstəvidə, D.Russonun (2001) tədqiqatında əsaslandırdığı "birgə qazanclar" və "mütləq rifah" imperativlərinin Cənubi Qafqaz və Türk dünyası geoiqtisadiyyatına tətbiqi təsdiq edir ki, Ermənistanın izolyasiyadan çıxması və Azərbaycanın Naxçıvanla suveren infrastruktur bütövlüyünün təmin olunması regionda asimmetrik riskləri və subyektiv təhdid qavrayışını minimuma endirəcəkdir. Bu marşrut sadəcə fiziki bir tranzit xətti deyil, onun ətrafında formalaşacaq azad iqtisadi zonalar və sənaye parkları vasitəsilə Cənubi Qafqazı transkontinental istehsal və loqistika mərkəzinə çevirəcək strateji bir ekosistemdir.

Yekun olaraq, Zəngəzur dəhlizinin tam funksional fəaliyyətə başlaması regional aktorların maraqlar balansını qorumaqla yanaşı, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat qovşaqlarının kəsişməsində regional təhlükəsizliyin ən etibarlı iqtisadi qarantı rolunu oynayacaq və hərbi-siyasi sabitliyin qorunmasında spesifik bir "iqtisadi qalxan" funksiyasını yerinə yetirərək Avrasiyanın yeni iqtisadi coğrafiyasında uzunmüddətli "qazan-qazan" modelinin əsasını qoyacaqdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi. Azərbaycan Respublikasının xarici ticarətinin yekunları: 2025-ci il üzrə statistik hesabat, 2026. (https://customs.gov.az/uploads/foreign/2026/2026_1.pdf?v=1771238319).
2. Report İnformasiya Agentliyi. Azərbaycanın Xarici ticarət dövriyyəsi və azad edilmiş ərazilərdə infrastruktur investisiyalarının makroiqtisadi təhlili. Report.az, 2026.

3. ARKA News Agency. Armenia's Foreign Trade Turnover Decreased by 29% in 2025, amounting to $21.4 billion: / Primary Economic Media Report. 2026, January 30,. (https://arka.am/en/news/economy/armenia-s-foreign-trade-turnover-decreased-by-29-in-2025-amounting-to-21-4-billion/).
4. ARKA News Agency. Armenia's Foreign Trade Turnover İncreased by 4.6% in the First Quarter, Reaching $4.7 billion: Russia Leads, with China and Iran in the Top Three / Primary Economic Media Report. 2026, May 8,. (https://arka.am/en/news/economy/armenia-s-foreign-trade-turnover-increased-by-4-6-in-the-first-quarter-reaching-4-7-billion-russia-l/).
5. ARKA News Agency. Armenia's Foreign Trade Turnover in 2025: Structural changes and the decline in re-export volumes. Yerevan: ARKA Economic Review, 2026a. (http://arka.am).
6. ARKA News Agency. Macroeconomic Indicators of Armenia: First Quarter 2026 Growth Projections and Regional Integration. Yerevan: ARKA, 2026b. (http://arka.am).
7. Armstat. Statistical Report on Foreign Trade of the Republic of Armenia for 2025. Yerevan: Statistical Committee of the Republic of Armenia, 2026. (http://armstat.am).
8. Civil Georgia. Georgia's Foreign Trade Up 10% in 2025 // National Statistics Office of Georgia (Geostat) Preliminary Data. January, 2026. (https://civil.ge/archives/717932).
9. Civil Georgia. Georgia's Foreign Trade in 2025: Historic Records and the Growing Trade Deficit. Tbilisi: Civil.ge, 2026.
10. Georgia Chamber of Commerce. Georgia breaks trade records in 2025: Global Trade Briefing Report. Atlanta: GCC Media, 2025a. (https://www. gachamber.com/news/georgia-breaks-trade-records-in-2025-surging-past-210-billion-and-outpacing-national-growth/).
11. Georgia Chamber of Commerce. Atlanta – Global Trade Briefing: Global logistics chains and sub-regional ıntegration trends. Atlanta: Georgia Chamber Publications, 2025b.
12. Geostat. External Trade of Georgia: Express data for 2025. Tbilisi: National Statistics Office of Georgia, 2026a.
13. Geostat. External Trade of Georgia in 2025: Express data and re-export dynamics. Tbilisi: National Statistics Office of Georgia, 2026b.
14. Report Information Agency. Azerbaijan's foreign trade turnover rises in 2025: Analysis of import-export trends // Business & Economy Section. January, 2026. (https://report.az/ en/business/ azerbaijan-s-foreign-trade-turnover-rises-in-2025).
15. Rousseau, D. Motivations for choice//. Journal of Conflict Resolution, № 46(3), 2002. pp.394-426.
16. Statistical Committee of the Republic of Armenia. The Socio-Economic Situation of the Republic of Armenia in January-December 2025: External Economic Activity. Yerevan: Armstat, 2026. (http://armstat.am).
17. The State Customs Committee of the Republic of Azerbaijan. Statistical Reports on Foreign Trade Turnover of Azerbaijan: Annual Report 2025. Baku: SCC, 2026. (https://www.stat.gov.az/news/index.php?lang=en&id=6611).
18. Washington Declaration. Joint Statement on the Trump Route for International Peace and Prosperity (TRIPP) and Middle Corridor Integration. Washington, D.C.: U.S. Department of State/ Washington Summit Materials, 2025. (Qeyd: Rəsmi Birgə Bəyanat formatında - Maddə 14)
19. Yüce, M. İkinci Karabağ Savaşı Sonrası Güney Kafkasya'da Yeni Jeopolitik Gerçeklikler ve Zengezur Koridoru // Kafkasya Çalışmaları Dergisi, 2022. Cild 7, №14, s. 115-138.

Резюме

Эльвин Ширинов

Геополитические и макроэкономические реалии Зангезурского коридора в 2025-2026 годах: глобальная доктринальная интеграция и региональные синергии

Данное исследование рассматривает геоэкономическую трансформацию и архитектонику региональной безопасности Южного Кавказа через призму ввода в эксплуатацию Зангезурского коридора. Используя комплексный SWOT-анализ и сравнительные макроэкономические данные за 2025 год, работа оценивает динамику внешней торговли Азербайджана, Армении и Грузии. Теоретическая база включает концепции «абсолютной выгоды» и «совместной выгоды» Дэвида Руссо для переосмысления региональной взаимозависимости. Основная эмпирическая значимость статьи заключается в представлении недавнего мирного договора между Арменией и Азербайджаном, подписанного 7 августа 2025 года, и его стратегическом согласовании с вашингтонской доктриной «Маршрут Трампа для международного мира и процветания» (TRIPP). Эта глобальная доктринальная

интеграция выводит коридор из статуса локального транспортного маршрута на уровень гарантированного трансконтинентального логистического узла в рамках Среднего коридора. Статистические данные показывают, что хотя искусственный реэкспортный пузырь Армении лопнул в 2025 году с падением торгового оборота на 29%, Зангезурский коридор предлагает необходимый институциональный механизм для преодоления региональной изоляции. В то же время он компенсирует фазу внутренних инвестиций Азербайджана за счет создания существенных доходов от экспорта логистических услуг, способных увеличить долгосрочный ВВП на 2,5–4,5%. В конечном итоге исследование приходит к выводу, что функциональная институционализация коридора создает устойчивый «экономический щит» против асимметричных дилемм безопасности, способствуя формированию долгосрочной взаимовыгодной модели на евразийском экономическом пространстве.

Ключевые слова: *Зангезурский коридор, доктрина TRIPP, Южный Кавказ, макроэкономический анализ, совместная выгода, геополитика.*

Summary

Elvin Shirinov

The Geopolitical and Macroeconomic Realities of the Zangezur Corridor in 2025-2026: Global Doctrinal İntegration and Regional Synergies

This study examines the geoeconomic transformation and regional security architecture of the South Caucasus through the operationalization of the Zangezur Corridor. Utilizing a comprehensive SWOT analysis and comparative macroeconomic data from 2025, the research evaluates the foreign trade dynamics of Azerbaijan, Armenia, and Georgia. The theoretical framework incorporates David Rousseau's concepts of "absolute gains" and "joint gains" to reassess regional interdependence. The primary empirical significance of the paper lies in its introduction of the recent Armenia-Azerbaijan peace treaty signed on August 7, 2025, and its strategic alignment with Washington's "Trump Route for International Peace and Prosperity" (TRIPP) doctrine. This global doctrinal integration elevates the corridor from a localized transport route to a guaranteed transcontinental logistical hub within the Middle Corridor. The statistical findings indicate that while Armenia's artificial re-export bubble collapsed in 2025 with a 29% decline in trade turnover, the Zangezur Corridor offers an essential institutional mechanism for overcoming regional isolation. Concurrently, it compensates for Azerbaijan's internal investment phase by generating substantial logistics service export revenues, potentially increasing long-term GDP by 2.5% to 4.5%. Ultimately, the study concludes that the functional institutionalization of the corridor establishes a sustainable "economic shield" against asymmetric security dilemmas, fostering a long-term win-win model across the Eurasian economic landscape.

Key words: *Zangezur Corridor, TRIPP Doctrine, South caucasus, macroeconomic analysis, joint gains, geopolitics.*

***Rəyçi**: s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızı*